# Şəms Təbrizi ilə Rumi arasındakı mənəvi və ədəbi bağlılıq

**Könül Hacıyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: konulhaciyeva75@gmail.com

**Annotasiya.** Mövlana ilə görüşü Şəms Təbrizinin həyatına və xarakterinə xüsusi bir anlam, fövqəladə dərəcədə səciyyəvi keyfiyyətlər qatmışdı. Mövlana Cəlaləddin Rumi də öz növbəsində kamil insan axtarışında idi və onların qarşılaşması Şəms Təbrizinin həyatının və şəxsiyyətinin formalaşmasına əhəmiyyətli təsirini göstərmişdi. Rumi onun içindəki eşqi, Haqqa yönələn nuru görə bilmiş, bu mənəvi zənginlik mücəssəməsi olan şəxsiyyətin əsl qiymətini verə bilmişdi. Şəms Təbrizi və Mövlana Cəlaləddin beş il bir-biri ilə sufiyanə söhbətlər edərək ruhlarını qidalandırmışlar. Onlar heç bir zaman bir-birinin müridi və ya mürşidi olmadılar. Həqiqət arayışında olub həqiqəti bir-birlərində tapdılar.
**Açar sözlər:** Şəms Təbrizi, Rumi, mənəvi, təsir, təsəvvüf

**Məqalə tarixçəsi:** göndərilib – 21.09.2021; qəbul edilib – 26.09.2021

# The spiritual and literature relationship between Shems Tabrizi and Rumi

**Konul Hajiyeva**
Doctor of Philosophy in Philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: konulhaciyeva75@gmail.com

**Abstract.** Meeting with Mevlana added a special meaning and extraordinary qualities to Shams Tabrizi's life and character. Mevlana Jalaleddin Rumi, on the other hand, was in search of the perfect person and their meeting had a significant impact on the formation of Shams Tabrizi's life and personality. Rumi was able to see the love inside him, the light towards the Truth, and the true value of the person who is the embodiment of this spiritual wealth. Shams Tabrizi and Mevlana Jalaleddin talked to each other for five years about Sufism and fed their souls. They were never each other's disciples or masters. They were in search of truth and found the truth in each other.
**Keywords:** Shams-i Tabrizi, Rumi, spiritual, influence, Sufism

**Article history:** received – 21.09.2021; accepted − 26.09.2021

## Giriş / *Introduction*

Azərbaycan xalqının yetirdiyi fəlsəfi fikir nümayəndələrindən biri, görkəmli şəxsiyyətlərdən olan Şəms Təbrizi öz düşüncə və mülahizələri ilə həm zəmanəsinin, həm də özündən sonrakı dövrün alim və şairlərini heyrətləndirərək onları güclü təsir dairəsinə sala bilmişdir. Görkəmli alim Mehmed Fuad Köprülünün "Külliyat"ına daxil olan "Türk ədəbiyyatı dərs notları"nda onun haqqında oxuyuruq: "Şems-i Tebrizi isminin delaletinden de anlaşılacağı veçhile Tebrizli bir Türktür. Büyük bir silsilenamesi olup birçok büyük adamdan telkin gördüğü söylenir. Guya kendi-kendine bargah-ı ilahiye vasil olmuş uşşakdan kabil-i sohbet kim olduğunu sorup dururken, gaipten gelen bir nida diyar-ı Rum'a gitmesini söylemiş; Şems de başta destar-ı melamet, arkada hırka-i kanaat ve elde asa-yı melalet olduğu halde Konya'ya gelmiştir" [3, s.231]. Göründüyü kimi, Şəms Təbrizinin dövrünün filo-

sof sufilərindən dərs aldığı, onların təsiri ilə yetişdiyi söylənir. Köprülüzadə onu həm də böyük bir alim olaraq gördüyünü xüsusi vurğulayır.

## Əsas hissə / *Main Part*

Şəms Təbrizi haqqında orta əsrlərin şair və təzkirəçiləri də məlumat vermişlər. Əflaki, Cami, Dövlətşah Səmərqəndi, Əmin Əhməd Razi, Hafiz Hüseyn Təbrizi, Nurüllah Mərəşi, Daraşükuh, Qulamsorur Lahuri, Məhəmmədəli Tərbiyət, Mirzə Məhəmmədəli Müdərris və başqalarının bu mütəfəkkir-şairimizlə bağlı qeydləri vardır. Şəms Təbrizinin həyat və fəaliyyəti haqqında daha müfəssəl məlumatı isə Bədiüzzəman Foruzanfər vermişdir. O, Şəmsin Mövlana Cəlaləddin Rumiyə həm mənəvi, həm də ədəbi yöndən təsir etdiyini, Ruminin irfani görüşlərinin inkişafında böyük rolu olduğunu vurğulamışdır. İran alimlərindən Ə.Zərinkub da bu təsirdən geniş bəhs edərək Mövlananın Şəmslə görüşdükdən sonra irfani və bədii təfəkkür baxımından püxtələşdiyini yazır. Görkəmli ədəbiyyatşünas alim, filologiya üzrə fəlsəfə doktoru Çingiz Sasani özünün "Orta əsrlər Azərbaycan poeziyasında naturalist ədəbi-fəlsəfi fikir" kitabında bu müəlliflərdən və onların gəldiyi qənaətlərdən bəhs edir. Adıçəkilən əsərdə oxuyuruq: "Mövlana "Divani-Şəms"də açıq şəkildə bildirir ki, "təvil" və "təfsir elmi"ni, irfani-bədii rəmzlərinin zahiri və batini mənalarını Şəmsdən təlim aldığı zaman öyrənmişdir... Mövlana "Divani-Şəms"də Şəmsin kimliyi haqqında başqa mənbələrdə təsadüf etmədiyimiz bir sıra bioqrafik məlumatlar verməklə yanaşı, ondan öyrəndiyi elmlər, bədii yaradıcılıq məsələlərindən də danışır. O, bir şeirində Şəmsin türk olmasından və ona şeir elmini öyrətməsindən söz açır" [7, s.238]. Göründüyü kimi, bu qənaətlər məhz Mövlana Cəlaləddinin yazdıqlarından hasil olur və Şəms Təbrizinin bir mütəfəkkir şair kimi xarakterinin açılmasında bu məqamlar böyük əhəmiyyətə malikdir. Şəms Mövlananın təqdimatında həm də türklüyün, türk təfəkkürünün, türk əxlaqının parlaq təcəssümü olaraq tanıdılır. Başqa sözlə, Şəms Təbrizi Mövlananın nəzərində kamil bir türk, eşq sultanı dərəcəsində idi. M.F.Köprülüzadənin Şəms haqqında yazdıqlarına qayıdaq. Tədqiqatçı onun yaşam hekayəsi ilə bağlı əldə geniş informasiya olmadığını qeyd edərək yazır: "Bunun şahsiyeti ve hususiyet-i hayatiyyesi hakkında malesef elde vazıh ve muayyen malumat yok. Yalnız Mevlana'nın o azamet-i mumtazesiyle kendisinden çok müteesir ve mülhem olduğuna bakarak, müşarünileyhin haiz-i ehemmiyet mutasavvıf ve bir alim olduğuna hükmedilebilir" [3, s.231]. Buradan çıxış edərək deyə bilərik ki, şairin həyat və fəaliyyəti mövzusunda əsas qaynaq onun əsərləridir.

Türkiyəli araşdırıcı Ədhəm Cəbəcioğlu Təbrizinin "Məqalat" əsərindən çıxış edərək yazır: "Makalat'ında ... otobiyoğrafık anlatırnlara yer veren Tebrizi, bu durumunu kendisi şöyle anlatıyor: "Çocukluk çağlarında, bana garip bir hal gelmişti. Kimse bu halimi anlayamadı. Babam bile, ne olduğıunu bilmiyordu. Bana diyordu ki, sen divane değilsin, bilmem ki bu gidişin sebebi ne? Sende bu yola gitmek için gerekli olan ne terbiye var, ne riyazat var, ne de başka bir şey" [1, s.108]. Gördüyümüz kimi, müəllif Şəmsin atası ilə dialoquna diqqət çəkərək gələcəkdə mütəfəkkir-şair kimi yetişəcək bu yeniyetmənin hələ kiçik yaşlarından fərqli təfəkkürə sahib olduğunu, ustad filosoflara xas davranış nümayiş etdirməklə öz yaşıdlarından seçildiyini bildirir. Dialoqun davamında oxuyuruq: "Babama dedim ki: Şu sözü benden dinle! Sen, ve ben öyle bir haldeyiz ki, sanki bir kaz yumurtasını bir tavuğıun altına koymuşlar; bu yumurtadan kaz yavrusu çıkmış; biraz palazlaşınca bir su kenarına gelir, yavru hemen suya atlar. Ana tavuk etrafınqa çırpınır.. Ama o kümes kuşudur; onun suya girmesine imkan yoktur. Işte seninle ben de böyleyiz ey babacığım! Ben kendimi yüzdürecek bir deniz görüyorum, benim yurdum, o denizdir" [1, s.108]. Şəms Təbrizinin öz vəziyyətini bu cür bədii dillə, maraqlı obrazlarla izah etməsi onun dünyagörüşünün fəlsəfi-etik tərəflərini, idrakının dərin qatlarındakı geniş məna yozumlarına yol açan baxış və yanaşma tərzini ortaya qoyur. Şair mütəfəkkir atası ilə öz arasındakı ruh müxtəlifliyini təhlil edərcəsinə çatdırmağa çalışır, "üzməyə" "dərin ümmanlar" istədiyini dilə gətirir. Onun filosof ruhu mənəvi cəhətdən qidalanmaq, daha da kamilləşmək üçün yeni zəngin mühitlər arayışında idi.

Mövlana Cəlaləddin də öz növbəsində kamil insan axtarışında olduğu üçün onların qarşılaşması Şəms Təbrizinin həyatının və şəxsiyyətinin formalaşmasına əhəmiyyətli təsirini göstərdi. Görkəmli ədəbiyyatşünas A.Rüstəmova bu məsələyə münasibət bildirərək yazır: "Mövlana müasirləri içərisin-

də bu kamil insan surətini ilk öncə öz mənəvi sirdaşı Şəms Təbrizinin şəxsiyyətində tapır" [5, s.305]. Şəmsin müridləri tərəfindən "Məqalat" adı altında bir yerə toplanılan fikirləri "Xirqeyi-Şəms" adı ilə də tanınmışdır. "Məqalat" əsərində Şəmsin ata və anası haqqında az da olsa məlumata rast gəlirik. O, valideynləri barədə bilgi verməklə bərabər, həm də onlar tərəfindən başa düşülmədiyini, bununla bağlı həssaslığını dilə gətirir. Ata-anasının Şəms Təbriziyə münasibəti və onun mövqeyi haqqında oxuyuruq:

و کندمی توصیف مهربانی و دلی‌نازک به را آنها مقالات در او که دانیم‌می قدر آن تبریزی شمس مادر و پدر درباره»
تبریزی شمس «.برآوردند ناز به چنین مرا که بود مادر و پدر از عیب این» :بودند کرده نازپرورده را تبریزی شمس آنها اینکه
خبر من از پدر غریب، خود شهر در من بیگانه، مرد نبود، عاشق الا ...بود مرد نیک» :گویدمی خود پدر درباره جایی در
نداشت. دیگر نیکو و است دیگر عاشق···» [8].

"Şəms Təbrizinin ata-anası haqqında bildiyimiz budur ki, "Məqalat"da onların ürəyiyumşaqlığından, mehribanlığından, onu nazını çəkərək, əziz xələf övlad kimi böyütmələrindən bəhs edir: "Bu ata-anamın nöqsanı idi ki, məni belə əziz-xələf böyütmüşdülər." Bir yerdə atası barədə bunları deyir: "Yaxşı kişi idi... Lakin aşiq deyildi. Laqeyd, soyuqqanlı idi. Mən öz şəhərimdə qərib idim, atam isə məndən xəbərsiz...Yaxşı başqadır, aşiq başqa..."

Şübhəsiz ki, Şəms Təbrizi burada Haqq aşiqliyini nəzərdə tutur. O, özü Haqq aşiqi idi və onu Haqq aşiqi olan bir kimsə doğru-düzgün anlaya bilərdi. Özünün də vurğuladığı kimi, doğma insan olmasına baxmayaraq, atası onun ruhundan, daxilində coşub-daşan ilahi eşqdən xəbərsiz idi. Şair-filosof düşüncələrini, sevgi dolu ruhunun diqtə etdiyi gerçəkləri paylaşa biləcək könül dostu, qəlb sirdaşı axtarırdı. Bu şəxs gələcəkdə ona "Xızr", "abi-həyat", "Yusifi Kənan" deyə müraciət edəcək Mövlana Cəlaləddin oldu.

Şəms Təbrizinin şəxsiyyətinin formalaşmasında Təbrizdə və digər yerlərdə dərs aldığı müəllimlərinin də mühüm rolu vardır. Onların bəziləri haqqında mənbələrdə qısa məlumat verilir. Şairin həyatı ilə bağlı yuxarıda istinad etdiyimiz mənbədə deyilir:

در و پرداخت سلوک و سیر به سپس او .است کرده‌می تحصیل خونجی شمس چون استادانی محضر در تبریزی شمس»
پرداخت. معرفت کسب به سجاسی، پیر و بافسله پیر چون بزرگانی طریقت، پیران نزد [8].

"Şəms Təbrizi Şəms Xunci kimi ustadların hüzurunda təhsil almışdır. Sonra o, seyr və səyahətə başladı və təriqət pirlərinin (müəllimlərinin), Piri-Səlebaf, Pire-Səccasi kimi ustadların yanında mərifət kəsb etməyə başladı". Onu da qeyd edək ki, Şəms Təbriziyə çox səyahət etməsi və bir yerdə uzun müddət qalmaması səbəbiylə onu sevənlər tərəfindən "quş" anlamına gələn "pərənde" adı verilmişdi.

Şəms Təbrizinin ilahiyyat biliklərinə sahib olmasında və dini-etik görüşlərinin formalaşmasında, qısacası, dərin bilgili sufi kimi yetişməsində Qurani-Kərimi bilməsinin də əhəmiyyətli dərəcədə təsiri olmuşdur. Ərəb dilini bilməsi ona dini elmlərindən bəhs edən kitabları oxumağa, Quranı yaxşı mənimsəməsi isə təsəvvüfün əsaslarını düzgün anlayıb şərh etməyə geniş imkan yaratmışdır. Bu barədə E.Cebecioğlunun fikirləri maraqlıdır: "İslam kültür tarihinin bize verdiği sosyo-kültürel yapılanmayı göz önünde bulundurursak, onun küçük yaşlarda en azından Kur'an-ı Kerim ve Arapça öğrendiğini söyleyebiliriz. Makalat'ını incelediğimizde, onun sık sık Kur'an ayetlerine referanslarda bulunduğunu, onları lügat olarak anlayıp, işari bir takım yorumlarla değerlendirdiğini görürüz" [1, s.108]. Mənbədə də qeyd edildiyi kimi, Şəms Təbrizi Qurani-Kərimi təfsir edə biləcək dərəcədə müfəssəl bilirdi və bu cəhət onun yazdığı və söylədiyi  şərhlərdə özünü bariz şəkildə göstərirdi. O, hələ uşaq ikən hər kəsi öz intellektual bacarıqları və qeyri-adi hafizəsi ilə heyrətləndirirdi. Onun həyat tərzi ilə bağlı deyilir: "Tebrizi, kabına sığmayan, diyar diyar gezen, diğer şeyhlerle fıkir teatisinde bulunmaktan hoşlanan, elinin emeğinin yiyen, sürekli siyah keçeden elbise giyen, insanlara yük olmaktan ısrarla kaçınan, riyadan uzak, özü, sözü doğru, insanlığın hayrını isteyen, hizmet etmekte büyük zevk duyan, bir Allah dostu olarak temayüz etmiştir" [1, s.112]. İllər keçdikcə gənc Şəmsdə bənzəri olmayan müəllimlik istedadı üzə çıxdı. Mövlana ilə görüşü isə bu haqq arayışında olan sufinin həyatına və xarakterinə xüsusi bir anlam, fövqəladə dərəcədə səciyyəvi keyfiyyətlər qatdı. Beləliklə, Şəms Təbrizi həm ustadların yetişdirdiyi bir ustad, həm də dərin fəlsəfi əsərlər müəllifi, şair-mütəfəkkir kimi formalaşdı. Bir qaynaqda oxuyuruq: «Между ними завязывается дружба, которая впоследствии оказала очень сильное влияние на мировоззрение обоих мыслителей. И не только их, но и десятков миллионов людей, которые получили возможность мыслить и чувствовать по-другому,

раздвинув границы своего представления о мире. Мевлана и Шамс ад-Дин становятся настоящими духовными братьями. Они очень много времени проводят в обществе друг друга, участвуют в музыкальных суфийских собраниях и ритуальных танцах дервишей» [9].

"Onlar arasında, sonradan hər iki mütəfəkkirin dünyagörüşünə olduqca güclü təsir göstərən dostluq yarandı. Həm də təkcə onların yox, dünya haqqındakı təsəvvürlərinin hüdudlarını genişləndirərək fərqli düşünmək və hiss etmək imkanı qazanan on milyonlarla insanın da dünyagörüşünə təsirsiz ötüşmədi. Mövlana və Şəmsəddin həqiqi mənəvi qardaşlara çevrilirlər. Onlar bir-biri ilə həddən artıq vaxt keçirir, ünsiyyətdə olurlar, musiqili sufi məclislərində və dərviş (Səma) rəqslərində iştirak edirlər".

Burada Şəmsin şəxsiyyəti ilə bağlı bir xüsusi məqamı da qeyd etmək lazımdır ki, o, təhsil və dünyagörüşünü artırmaq məqsədilə səfər etdiyi şəhərlərdəki təkkə və mədrəsələrə getməzdi. Şəms Təbrizi bu vəziyyəti özünü o yerlərə layiq görməməsi ilə izah edirdi. Onun fikrincə, təkkə "bişib hazır olmaq" istəyənlər, özünü mənən inkişaf etdirməyə can atanlar üçündür. Başqa sözlə, Şəms təkkədəkilərin ruhi-mənəvi müvazinətini pozmamaq naminə oraya getmək istəmədiyini deyir və fikrini bu şəkildə əsaslandırırdı. Şəms Təbrizi təkkə əhli barədə deyirdi: "Dileklerine erişememe ihtimali olduğundan, onların vakitleri değerlidir. Ben onlardan değilim" [1, s.111]. O, mədrəsəyə getməməsini də öz qənaətincə tutarlı dəlillərlə əsaslandırmağa çalışırdı. Müzakirə və mübahisələrə girişmək niyyətində olmadığını əsas gətirərək özünü mədrəsələri ziyarət etməkdən də uzaq tuturdu. Əslində isə Şəms öz biliyi, dünyagörüşü, mənəvi-ruhi aləmi ilə əslində təkkədəkilərdən və mədrəsədəkilərdən yüksəkdə dururdu. Onun daxili zənginliyi, şair-filosof şəxsiyyəti təkkə və mədrəsədə gedən bəhslərin fövqündə idi. O böyük təvazökarlıqla "layiq deyiləm" desə də, əslində o məkanların sakinləri Şəmsi anlaya biləcək idraka, təfəkkürə malik deyildilər. Onun içindəki eşqi, Haqqa yönələn nuru Mövlana görə bilmişdi. Məhz Rumi bu mənəvi zənginlik mücəssəməsi şəxsiyyətin əsl qiymətini verə bilmişdi. Görkəmli alim A.Rüstəmova onun Şəms haqqındakı təəssüratlarını yüksək qiymətləndirərək yazırdı: "Mövlananın bu "Külliyat"ında az qəzəl tapılar ki, "Şəms" məxləsli məqtə beytlə bitməsin və Şəmsə həsr olunmasın [5, s.305]. Daha sonra alim Ruminin şeirindən bir hissənin tərcüməsini verir və buna münasibətini bildirir:

*Sənin həyatverici çöhrənin aşiqləriyik.*
*Rəhm et ki, sənin eşqinin giriftarıyıq.*
*Sən çöhrənlə günəş və aysan.*
*Biz hamımız sənin zərrələrinik.*
*O pərdə arxasındakı üzünü göstər ki,*
*Hamımız sənin sarayının qapısında*
*Onu görməyə müntəzirik.*
*Dostluq məclisində biz*
*Sənin şirin-şərbət görüşünün*
*Həsrəti ilə özsüzləşmişik.*
*Bizim gülşənimizə lütf göstər ki,*
*Hamımız sənin bəndən və gədalarınıq.*
*Şəms Təbrizi, canların canı,*
*Biz hamımız sənin bəndən və gədalarınıq.*

Qəzəllərində Mövlana Şəmsi hansı təşbihlərlə yad etmir?! Şəms Xızrdır, ab-həyatdır, Yusifi Kənandır..." [5, s.305-306]. Görkəmli ədəbiyyatşünas alimin gətirdiyi şeir nümunəsindən də görünür ki, Şəmsin daxili simasını, iç dünyasını ən yaxşı görə bilən Mövlana Cəlaləddin olmuşdur. O, Şəms Təbriziyə ünvanladığı heyrət və heyranlıq dolu sətirlərdə öz səmimi hiss və düşüncələrini dilə gətirmişdir. Mövlana Cəlaləddin Şəmsin əsl qiymətini verə bilmiş, ondan öyrənib ilhamlanaraq hikmət dolu düşüncələrini sətirlərə tökmüşdür.

Yazılanlardan məlum olduğu üzrə, Ruminin daim yanında olan, onun öyüd nəsihət-aldığı, məsləhət üçün müraciət etdiyi, ən vacibi isə təsəvvüf elmindəki ustadı Seyyid Burhanəddin "ülumi-zahi-

riyyə"ni və "ülumi-batiniyyə"ni öyrənib başa vuran şagirdindən ayrılmaq qərarına gəlir. Bu qərarını ona bildirdiyində Mövlana Cəlaləddin razı olmur. Niyə israrla Konyadan uzaqlaşıb başqa yerə getmək istədiyini soruşduqda, Seyyid Burhanəddin ona, Təbrizdən başqa bir alimin gələcəyini və artıq burda qalmağın gərəksiz olduğunu söyləyir. Təbrizdən Mövlananın görüşünə gələcək olan alim məhz Şəms Təbrizi idi. Bu barədə oxuyuruq: "Mevlana'nın tecelliyat-ı fikriyyesinde Şems-i Tebrizi'den derin intibalar [izlenimler] vardır. Mevlana, Şemsü'l-Hakayık'ını buna ithafen yazdığı gibi, Mesnevi'sinde dahi onun Tebriz'den geleceğini daha evvel haber aldığını söyleyerek her vesileyle hakkında ibzal-i hürmet [bolca hürmet] eyler" [3, s.231]. Göründüyü kimi, Mövlana Cəlaləddinin əsərlərində hələ Şəmslə görüşmədən öncə onun haqqında öngörmələr və qeydlər olmuşdur.

Beləliklə, Şəms Cəlaləddin Ruminin olduğu Konyaya gəlib çatır və onunla ilk görüşündə Mövlanaya "Bayazid Bistami böyükdür, yoxsa peyğəmbər?" – deyə bir sual ünvanlayır. Sual Mövlana Cəlaləddini çaşdırır və sarsıdır. Onların bir-biri ilə müqayisəyə gəlmədiyindən, peyğəmbər dəryayi-vəhdətə daldığı halda, Bayazid Bistaminin həmin dəryadan məst və heyran şəkildə yalnız bir neçə qurtum içə bildiyindən danışır. Cavabdan məmnun qalan Şəmsin "Allah!" nidası Mövlananı güclü şəkildə təsirləndirir və o an onlar ünsiyyətlərinin baş tutacağını, bir-birindən ruhun və eşqin sirlərini əxz edə biləcəklərini anladılar. Bütün bu olanların davamında Mövlana Şəmsi öz evinə aparır və onlar uzun söhbətlərlə ünsiyyətlərini daha da möhkəmlədirlər. Şəms Təbrizi və Mövlana Cəlaləddin beş il bir-biri ilə sufiyanə söhbətlər edərək ruhlarını qidalandırmışlar. Bəzi mənbələrin verdiyi məlumata görə, onlar tənha bir guşəyə çəkilərək yanlarına heç kimi buraxmır, inziva aləmində təkbətək ünsiyyət edirmişlər. Başqa bir məlumata görə isə bu iki mütəsəvvif altı ay şeyx Səlahəddin Zərkubun hücrəsində söhbət etdikdən sonra oranı tərk etmişlər. Şəms Təbrizi atasının və ustadı Seyid Bürhanəddinin yolunu davam etdirib Səmaya rəğbət göstərməyən Mövlananı yola gətirərək Səmanı ona sevdirmişdi. Mövlana artıq Səma ayinindən uzaq qalmırdı.

Mövlana ilə Şəmsin müşahidə edilən bu mehribanlığı və ünsiyyəti xalq tərəfindən qısqanclıqla qarşılanır. Həmin zaman başqa yerdə olan Sultan Əlaəddin Konyaya qayıtdıqda ətrafda olan dedi-qoduçular ona şikayət edirlər. Nəticədə Şəms oradan çıxıb getməli olur. Onun gedişi Mövlana Cəlaləddini olduqca məyus edir və Rumi böyük hüznə qapılır. Bu hadisədən iki il sonra Mövlana Şam şəhərindən gələn bir məktubdan Şəmsin Şamda olduğunu öyrənir. Könül sirdaşı ilə ayrılığa tab gətirməyən Mövlana digər oğlu Sultan Vələdi Şəms Təbrizinin dalınca, Şam şəhərinə göndərir. Sultan Vələd təsadüfən qəhvəçi dükanında Şəms Təbriziyə rast gəlmiş kimi davranaraq onun ayaqlarına düşür və atası Cəlaləddinin xətrinə Konyaya gəlməsini xahiş edir. Başqa bir fərziyyəyə görə, Sultan Vələd atasının Şəmsə yazıb ünvanladığı məktubu da Şəms Təbriziyə təqdim edir. Buradan da gördüyümüz kimi, zahirən yox, mənən zəngin olmağa üstünlük verən, dərviş həyatı keçirən Şəmsin hörmət və ehtirama layiq görülməsi onu onun şəxsiyyətini yaxından tanımayanlara da tanıdır, onun müridlərindən biri olmağa aparıb çıxarır. Sultan Vələd süvari halda gedən Şəmsin atının üzəngisinin yanında onu düz Konyaya qədər piyada müşayiət edir. Beləcə, Şəms 1247-ci ilin may ayında yenidən Mövlananın yanına gəlir.

Sultan Vələd daha sonralar qələmə aldığı "Rübabnamə", "İbtidanamə" və "İntihanamə" əsərlərində ilahi eşqlə dolub daşan bu iki sirdaşın görüşünü bir-birinə qovuşan iki coşğun dənizə bərabər tutmuşdur. Təəssüflə qeyd etməliyik ki, Şəms Təbrizinin Konyaya geri dönməsi heç də yaxşı sonluqla nəticələnmədi. Hətta, belə demək mümkünsə, faciəyə yol açdı. Bununla bağlı tədqiqatçı alim E.Cebecioğlu yazır: "Üzüntüsünden sapsarı kesilen Mevlana artık dostu gelmiş, eskisi gibi neş'esine kavuşmuş, sema'a, şiir yazmaya ve dostIarına ilgisini artırmaya başlamıştır. Ancak, bu ikinci geliş ile birlikte sönen fitne ve dedikodular yeniden kendini gösterir. Kin ve düşmanlık halkası genişler... Sonunda onu bir avuç kıskanç güruh 5 Aralık 1247 tarihinde şehit ettiler. Kaynaklann bazısı yok olduğunu kayded'erlerse de, mezarının şu andaki mescidinde olduğu ve Mevlana'nın vefatından sonra, üzerine türbe yapıldığı muhakkaktır" [1, s.111-112]. Yazılanlardan Şəmsin Konyaya ikinci gəlişinə bəziləri tərəfindən düşmən münasibəti göstərildiyini görürük. Xüsusən Çələbi Əlaəddin Şəmsə qarşı qəzəb nümayiş etdirir. Şəms Təbrizi Mövlanaya bütün bunlardan qətiyyən bəhs etmir, onun oğlu Sultan Vələdə isə küskünlüyünü dilə gətirərək oralardan çıxıb gedəcəyini söyləyir. O, inciklik və giley dolu sözlərini bu sətirlərə köçürmüşdür:

من کجایم کسی نداند که — رفتن آنچنان بار این خواهم
گز هر نشان کس ندهد — عاجز طلب در گردند همه
آثار من گرد از نیابش کس — بسیار چنین در بگذرد سالها

“İstəyirəm bu dəfə elə gedəm ki, heç kəs harada olduğumu bilməsin, hər kəs bu işdə aciz qalsın. Kimsə (məndən) bir nişan verməsin. Çox illər beləcə keçsin, bir nəfər də məndən əsər-əlamət tapmasın” [6, s.531].

Günlərin birində o öz sözünün üstündə duraraq heç bir iz buraxmadan qeybə çəkilir. Başqa bir rəvayətə görə isə Sultan Əlaəddinlə Şəms Təbrizi arasındakı nifaqa Şəmsin ona ədəblə davranması barədə iradı səbəb olmuşdur. M.F.Köprülüzadə bu barədə yazır: “Şems'in bu giyabını türlü türlü tevil ederler[yorumlarlar]. Bazılarınca o katl olunmuştur. Bazılarınca onun ortadan çekilmesi, bir mazhariyet-i gaybiyye olup o ölmemiştir. Bir rivayete göre de gıyabından [kayboluşundan] sonra bir gece Mevlana'nın rüyasına girerek kendisinin Tebriz'de olduğunu söylemiş, Mevlana da oraya giderek üç gün yanında kalmış imiş” [3, s.234]. Göründüyü kimi, Şəmsin qəfildən ortadan yox olması ilə bağlı bir neçə fərziyyə vardır. Fikrimizcə, Şəmsin Təbrizə qayıtması ehtimalı daha ağlabatandır. İstənilən halda onun qəfildən yoxa çıxması və ya qeybə çəkilməsi Mövlananın qəlbini və ruhunu dərindən yaralamış, o, bu itkidən güclü şəkildə təsirlənmişdir. Şəms Təbrizinin birdən-birə yox olması barədə mənbələrdəki bəzi məlumatlarda deyilir: “Kaynakların bazısı yok olduğunu kayded'erlerse de, mezarının şu andaki mescidinde olduğu ve Mevlana'nın vefatından sonra, üzerine türbe yapıldığı muhakkaktır...” [1, s.112]. Ən yaxın munisini gözlənilmədən itirmək Mövlana Cəlaləddin Ruminin sənətkarlığına da təsirsiz ötüşməmiş, hətta onun yaradıcılığının əvvəlkindən bir qədər fərqli istiqamətdə, yeni məcrada inkişaf etməsini şərtləndirmişdir. M.F.Köprülüzadənin “Türk edebiyatında ilk mutasavvıflar” kitabında bununla bağlı oxuyuruq: “Mevlana bir sabah medreseye geldiği vakit, Şems kapbolup gitmişti... Onun ayrılık acısıyla birçok gazel inşad eden [söyleyen] Mevlana, nihayet Şam'a gidip yeniden aramaya başladıysa da Şems'in izini bulmak mümkün olamayınca tekrar Konya'ya dönmek zorunda kaldı” [2, s.319]. Mövlana Cəlaləddin bu münasibətlə özünün dərin hiss-həyəcanını ifadə etdiyi qüssə və hüzn dolu şeirlər qələmə almışdır. Həmin şeirlərdə Şəms Təbrizinin təlqin etdiyi eşqin cəzbedici şöləsi oxuyanları öz nuruna qərq edir. Bu şeirlər sənətkarlıq nöqteyi-nəzərindən güclü əsərlər sayılmasa da, Şəmsin şəxsiyyətinə ithaf edildiyindən onun ruhunu, mənəvi dünyasını tərənnüm və ifadə edir. Türkiyənin Konya şəhərində Şəms türbəsində, Sultanül-üləmanın qəbrinin arxasında bir məzar var ki, ona “Şəms məqamı” deyilir. Daha sonra Türkiyənin Niğdə şəhərindəki Kəsikbaş türbəsi də Şəmsə aid edilir. Bunlardan başqa, Təbrizdə Gecil adlı qəbiristanlıqda, Xoyda, Pakistanın Multan şəhərində Şəms türbələri mövcuddur. Şəmsin cismani yoxluğu və Mövlananın buna münasibəti haqqında deylənlərə nəzər salaq: “Sultan Veled'in ifadesiyle Mevlana, Şam'da suret bakımından Tebrizli Şems'i bulamadı ama mana yönünden onu, kendisinde buldu. Ay gibi kendi varlığında beliren Şems'i, kendi gördü ve dedi ki: “Beden bakımından ondan ayrıyım; ama bedensiz ve cansız her ikimizde bir nuruz. Ey arayan kişi! İster onu gör, ister beni. Ben, O'yum; O da ben...” [4, s.259]

## Nəticə / *Conclusion*

Bu qənaətlərdən bir həqiqət hasil olur ki, Şəms özünün uğrunda çalışdığı irfani qayəsinə çatmış, təlqin və təlimləri ilə könül dünyasına nüfuz etdiyi Mövlana ilə bir ruhi məcrada bütünləşə bilmişdi. Ümumiyyətlə, belə qənaətə gəlmək olar ki, Şəms Təbrizi ilə Mövlana Cəlaləddin bir-birinin müridi və ya mürşidi deyildilər. Onlar həqiqət axtarışında olub həqiqəti bir-birində görə bilmişdilər.

## Ədəbiyyat / *References*


1. Cebecioğlu Ethem. “Şemseddirı-i Tebrizi'nin Bazı Kur'an Ayetlerine Getirdiği İşârî Yorumlar”, Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi, Ankara, 1999, cilt: XXXIX
2. Köprülü Mehmet Fuad. Türk edebiyatında ilk mutasavvıflar. İstanbul: Alfa, 2013
3. Köprülü Mehmet Fuad. Türk edebiyatı ders notları. İstanbul: Alfa, 2014

4. Mevlana ve Şems’ten yüreğinizi ısıtan sözler. İstanbul: Yakamoz kitap, 2014
5. Rüstəm Azadə. Mənəvi dünənimiz bu günün işığında. Bakı: Elm, 2011
6. Rüstəmova Azadə. Seçilmiş əsərləri. İki cilddə, II c. Bakı: Elm, 2014
7. Sasani Çingiz. Orta əsrlər Azərbaycan poeziyasında Naturalist ədəbi-fəlsəfi fikir. Bakı: Elm, 2007
8. http://www.akairan.com/biography/daneshmandan1/201292012153220331.html
9. https://arbathomes.ru/article/shams-al-din-tebrizi

## Духовные и литературные отношения между ШамсомТебризи и Руми

**Кёнюль Гаджиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: konulhaciyeva75@gmail.com

**Резюме.** Встреча с Мевланой добавила особого смысла и неординарных качеств жизни и характеру Шамса Тебризи. Мевлана Джелаледдин Руми, в свою очередь, тоже искал идеал человека, и их встречи оказали значительное влияние на формирование жизни и личности Шамса Тебризи. Мевлана смог увидеть внутри себя любовь, свет, обращенный к Истине, и истинную ценность человека, который является воплощением этого духовного богатства. Шамс Тебризи и Мевлана Джелаледдин пять лет разговаривали друг с другом и получали взаимное духовное питание. Они никогда не были учениками или учителями друг друга. Они искали Истину и нашли Истину друг в друге.
**Ключевые слова:** Шамс Тебризи, Руми, духовное, влияние, суфизм